## *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ*
## *ВЫБОРЫ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ*
## *ELECTIONS OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN*



*UOT 371*

***Akif Nurağa oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*Orcid https://orcid.org/0000-0002-9210-7141*
https://doi.org/10.69682/azrt.2024.91(1).5-10

# QALİB XALQIN QALİB LİDERİ

***Акиф Нурага оглы Аббасов***
*ученый секретарь Института Образования Азербайджанской Республики,*
*доктор педагогических наук, профессор, заслуженный учитель*

# ЛИДЕР-ПОБЕДИТЕЛЬ НАРОДА-ПОБЕДИТЕЛЯ

***Akif Nuragha Abbasov***
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan.*
*doctor of sciences in pedagogy, professor, Honored teacher*

# WINNING PEOPLE, WINNING LEADER

**Xülasə**. Prezident seçkilərində qazandığı böyük qələbə münasibətilə qələmə alınan bu məqalədə cənab İlham Əliyevin uğurları, qiymətli fikirləri ilə oxucuları tanış edilir. İlk növbədə Azərbaycan Respublikasının Prezidentinin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsindəki bəzi anlar; daha

sonra 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimində söylədiyi fikirlər yada salınır. Gənc nəslin həmin fikirlərdən faydalanmağı məqsədəuyğun sayılır.

***Açar sözlər**: prezident seçkiləri, yeni dövrün başlanğıcı, Ermənistan üzərində tarixi qələbə, qalib prezident, qalib xalq*

**Резюме**. В этой статье, написанной по случаю великой победы Ильхама Алиева на президентских выборах, читатели знакомятся с достижениями и ценными идеями господина Президента. Прежде всего, остановимся на некоторых моментах из интервью Президента Азербайджанской Республики местным телеканалам 10 января 2024 года; позже вспомним речь, которую он высказал на церемонии приведения к присяге в Милли Меджлисе 14 февраля 2024 года. Было бы целесообразным, чтобы молодое поколение могло извлечь пользу из этих идей.

***Ключевые слова**: президентские выборы, начало нового периода, историческая победа над Арменией, президент-победитель, народ-победитель*

**Summary**. In this article, written on the occasion of his great victory in the presidential elections, readers are introduced to the achievements and valuable ideas of Mr. Ilham Aliyev. First of all, some points from the interview of the President of the Republic of Azerbaijan to local TV channels on January 10, 2024; later, the statements he made at the swearing-in ceremony in the Milli Majlis on February 14, 2024 are recalled. It is considered appropriate that the younger generation can benefit from these ideas.

***Key words**: presidential elections, the beginning of a new era, historical victory over Armenia, victorious president, victorious people*

*2024-cü il fevralın 07-ində Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçirildi. Ərazi bütövlüyümüz tam bərpa edildiyindən Azərbaycan bir guşəsində səsvermənin keçirilməsi mümkün olmuşdur. İlham Əlirza oğlu Əliyev seçicilərin 92 faizindən də çoxunu toplamaqla yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, heç də təsadüfi deyildi. Cənab İlham Əliyev hakimiyyətdə olduğu 20 il ərzində ölkəmizi dünya ölkələrinin inkişaf səviyyəsinə gətirib çıxarmışdı, xarici və daxili siyasətini yüksək səviyyədə qurmuş, elmin, təhsilin, mədəniyyət və incəsənətin, iqtisadiyyatın tərəqqisinə şərait yaratmış, ölkənin müdafiə qüdrətini təmin etmişdi. O, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in Minsk qrupunun 30 il ərzində bacarmadığı bir iş həll etmiş, Ermənistana layiqli cavab verərək, bütün düşmən qüvvələri ölkəmizdən çıxarmışdı. Məhz onun rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünə nail olmuşuq.*

*2024-cü il fevralın 07-ində Azərbaycan xalqı Bütün bu uğurların ən layiqli namizədinə səs verdi. Bu ilin fevral ayının 14-də cənab Prezident Milli Məclisdə and içdi: "Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyəm. Dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağam. Xalqa ləyaqətlə xidmət edəcəyəm. Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam"* (1, s. 1).

XX əsrin əvvəllərində Türkiyədə Mustafa Kamal Atatürk sonrakı dönəmlərdə Azərbaycanda Heydər Əliyev tarixin ən yüksə zirvəsinə çıxdılar. Mustafa Kamal Əlirza oğlu Türkiyə Cümhuriyyətinin yaradıcısı, ilk prezidenti; Heydər Əlirza oğlu isə müasir Azərbaycanın qurucusu, baş memarı oldu.

XXI əsr də türk əsridir. Bu yüzillik türk dünyası, xüsusən Azərbaycan üçün uğur gətirməkdədir. Hazırda Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev yeni dünyanın yeni, uğurlu səhifələrini yazırlar.

Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsindəki tarixi qələbələrimiz, erməni ordusunu yerlə-yeksən etməyimiz, Ermənistanın təslimçilik aktını imzalamaq məcburiyyətində qalması, ötən ilin sentyabrında antiterror əməliyyatı keçirməklə vur-tut 23 saat ərzində erməni ordusunun Xankəndindəki və ətrafdakı qalıqlarının, separatçıların tərksilah edilməsi, Azərbaycanın vaxtilə işğal olunmuş ərazilərində də üçrəngli bayrağımızın dalğalanması ilə nəticələndi.

Bütün bu uğurlara, zəfərə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə nail olduq. Son 200 il ərzində bir çox torpaqlarımız əldən getmişdi. Onların geriyə qaytarılması qeyri-mümkün idi. Başqa ölkələrdə də belə\ hallar baş verir. Ali Baş Komandanımız cənab İlham Əliyev sübut etdi ki, biz itirilmiş torpaqlarımızı geri

qaytarmağa qadir xalqıq. Dəmir yumruq, şanlı, qüdrətli ordumuz, müharibə zamanı ağıllı siyasət, düzgün hərbi manevrlər, hərbin strategiyası və taktikasını dərindən bilmək, əsgərləri düzgün istiqamətləndirmək, bacarıqlı rəhbərlik sayəsində məqsədə çatmaq mümkün olur.

İlham Əliyev qalib xalqın qalib lideridir. Xalqımız öz prezidentini sevir, onunla fəxr edir.

Prezident seçkilərində qazandığı böyük qələbə münasibətilə qələmə aldığımız bu məqalədə möhtərəm Prezidentimizin bəzi uğurları, qiymətli fikirləri ilə oxucuları tanış etmək istəyirik.

İlk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsindəki bəzi anları yada salmaq istərdik.

Ölkə Prezidenti öz müsahibəsində Azərbaycanın hazırkı dövrünü yeni tarixi reallıq, yeni tarixi mərhələ kimi nəzərdən keçirir, yeni dövrün başlanğıcı adlandırır.

Qarabağın erməni tör-töküntülərindən tamamilə azad edildiyini göstərməklə, Qarabağdakı separatizminin, terrorizmin tarixin zibilliyinə atıldığını bildirir.

İlham Əliyev artıq 20 ildir ki, Azərbaycanımıza rəhbərlik edir, Ali Baş Komandandır. Müsahibə zamanı televiziya işçiləri digər məsələlərlə yanaşı eyni zamanda son 20 ildə görülmüş işlərə, qazanılmış nailiyyətlərə dair suallarla da möhtərəm Prezidentimizə müraciət etmişdilər. Həmin illərdən söz açılarkən cənab İlham Əliyev diqqətə aşağıdakıları çatdırmışdır: "Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Bu, həm beynəlxalq aləmdə, həm regionda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır" (1).

"Real" Televiziyasından Mirşahin Ağayev "Oktyabr ayının 15-də Siz Xankəndidə Azərbaycan Bayrağını qaldırdınız və mənə elə gəlir ki, bu, yalnız Sizin əl deyildi, bu, Ulu Öndər Heydər Əliyevin əli idi, bu, Pənahəli xanın əli idi, bu, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əli idi və bütün əllər məhz Sizin əlinizdə cəmləşmişdi" – deyəndə cənab İlham Əliyevin ona cavabı bu oldu: "Ədalətə inanmaq lazımdır. 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal deyil. Bu, insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən".

Möhtərəm Prezident sözünə davam edərək bildirmişdir: "Dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik".

Bu, həqiqətən belədir. 30 il ərzində bəzi ərazilərimiz işğal altında olanda dünya ölkələri bircə dəfə də olsun bizim haqq işimizi yada salmadı. Daim Ermənistanın tərəfində dayandılar. İndi torpaqlarımızı azad etmişik, fəqət yenə də Ermənistanın tərəfindədirlər. Halbuki onlar çoxdan Ermənistanı məcbur edə bilərdilər ki, Azərbaycanın əzəli torpaqlarını tərk etsinlər. 44 günlük müharibədən, üçtərəfli sazişdən sonra Ermənilər Laçını və tərk edəndə evləri, meşələri oda qalayırdılar. İndi dil-dil ötən dövlətlər bircə kəlmə dedilərmi ki, o evləri niyə yandırırsınız, haramınız olsun, 30 il azərbaycanlı evlərində yaşamışınız, əmlaklarını, mal-qarasını əllərindən almışınız, onları niyə viranə qoyursunuz? Demədilər.

Erməni ordusunun tör-töküntüləri, separatçılar antiterror əməliyyatı qarşısında tablaşa bilməyərək Xankəndini, Xocalını tərk etdilər. Xocalıda Azərbaycan bayrağını qaldıranda ke-

çirdiyi hisslərdən söz açan möhtərəm Prezidentimiz deyir: "Fikirləşirdim, bax, bu gün tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi. Bunlar tarixi anlardır. Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik" (1).

"ARB 24" Televiziyasından Çinarə Nurməmmədova aşağıdakı sulla Prezidentə müraciət etmişdi: "Mühüm hadisələrindən biri "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması idi. Azərbaycana qarşı təzyiqlər başlanıldı, Həmin dövrdə hələ Xankəndidə Azərbaycanın Bayrağı da ucaldılmamışdı, separatçılar da orada fəaliyyət göstərirdilər, təzyiqlər daha çox idi. sərhəd-keçid məntəqəsini yaradarkən Azərbaycan hansı riskləri gözə almışdı?

Bu suala alınan cavab aşağıdakılardan ibarət olmuşdur: Üçtərəfli Bəyanatın o şərtlərlə qəbul edilməsi bizim böyük siyasi uğurumuzdur. Bir çox tamamlanmamış məsələ var və o məsələlərə aydınlıq gətirilməlidir, ilk növbədə, o vaxtkı Laçın dəhlizi ilə bağlı olan məsələ. Görəndə ki, bu yol vasitəsilə Ermənistan Qarabağa silah-sursat, minalar göndərir, hərbi birləşmələrin rotasiyası həyata keçirilir, biz məsələ qaldırmağa başlamışdıq ki, artıq biz bu yola nəzarət etməliyik. Rusiya tərəfi buna müsbət yanaşmadı. Beş dəfə Rusiya tərəfinə ən yüksək səviyyədə müraciət edilmişdir ki, gəlin, bu yola birlikdə nəzarət edək. Belə çıxır ki, siz buna tam nəzarət edə bilmirsiniz. 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar oraya necə gətirildi? Minalar Laçın-Xankəndi yolu vasitəsilə gətirilmişdi. Qarabağa qanunsuz silahların, sursatların, minaların və canlı qüvvənin daşınması və göndərilməsi artıq mümkünsüz olmuşdu" (1).

Bütün bunlar nəzərə alınaraq, "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradıldı.

Müsahibə zamanı antiterror əməliyyata da münasibət bilidirilmişdir. Tanış olaq. İlham Əliyev: "Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir. Bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular" (1).

Antiterror əməliyyatının məqsədindən danışarkən cənab Prezident aşağıdakı məsələləri diqqət mərkəzinə çatdırmışdır: "Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunacaq-olunmayacaq? Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqeyimiz birmənalı idi – onların tutulması. Bəziləri artıq Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəziləri Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktyorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara" (1).

Cənab İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi zamanı Fransa münasibətlərinə də aydınlıq gətirilmişdir. Əvvəllərdə olduğu kimi, Hazırda da Fransa Ermənistanın yanındadır. Hətta bu iki dövləti "iki bacı" adlandırırlar. Fransa qeydsiz-şərtsiz, heç bir əsas olmadan Ermənistanı müdafiə edir, onların qanunazidd əməllərinə haqq qazandırır. Dədə-baba torpaqlarımızın düşməndən azad olunmasına haqsız olaraq dözümsüzlük göstərir.

Cənab Prezidentin sözləri ilə tanış olaq: " Düşünürdüm ki, münasibətlərimizdə sağlam məntiq üstün olacaq və körpülər yandırılmayacaq, çünki bu, prinsip etibarilə nə Fransaya, nə də bizə lazımdır. Həm parlament, həm də Senat qondarma "Artsax"ı tanıdılar. Paris meri Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verib. Təklif edərdim ki, bəlkə də fəxri sözünü real vətəndaş-

lıq ilə əvəz etsinlər, onları Parisin mərkəzində yerləşdirsinlər və orada Artsax respublikası elan etsinlər. Fransa başqa amillərlə maskalanmayaraq açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı. BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Ən azı 5 dəfə bu cür cəhdlər edildi və hamısı tam uğursuzluqla nəticələndi. Ölkələrin əksəriyyəti bizi dəstəklədi. Bu, onlar üçün çox güclü siyasi zərbə idi, onlara öz meydançalarında qalib gəldik. Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu. Avropa İttifaqı diplomatiyasının rəhbəri təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, bu şəhər ilə İsmayıllı arasında qardaşlıq sazişinin ləğv edilməsi kimi lüzumsuz hərəkətlərə əl atmağa başladılar. Biz də adekvat cavab verirdik. Amma bu, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni, burada onlar praktik olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, daha doğrusu, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik” (1).

Möhtərəm Prezidentimiz daha sonra söhbətinə davam edərək bildirdi: “Fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında faktlar həddindən artıq çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Mina terrorunu da əlavə etmək olar. Fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Bir milyon yarım əlcəzairlinin soyqırımı və digər faktlar da var” (1).

Biz Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 14 fevral 2024-cü ildə Milli Məclisdəki andiçmə mərasimindəki nitqi ilə də tanış olduq.

Cənab Prezident nitqinə aşağıdakı sözlərlə başlamışdır: “İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm. İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir” (2).

Cənab İlham Əliyev öz nitqində göstərmişdir ki, 2003-cü ildə o, ilk dəfə Prezident vəzifəsinə seçiləndə xalqı əmin etmişdi ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacaq. Həmin illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də, problemlər də olmuşdur, fəqət Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla getmişdir.

Tanış olaq: “Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq” (2).

İkinci Qarabağ müharibəsini şanlı tariximiz adlandıran İlham Əliyev demişdir ki, əgər Ermənistan və onun rəhbərliyi, onun havadarları beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi yerinə yetirilsəydi, böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər müharibə olmaya da bilərdi. Lakin bu təşəbbüs olmadı, əksinə erməniləri qızışdırıb ortaya saldılar.

İlham Əliyev dedi: “Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərir, ... işğalçı

dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər. O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda, Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur" (2).

Bəli, qalib xalqın qalib lideri yeni tarix yazdı. Bu tarixlə təhsilalanların təlim prosesində, sinifdənxaric, məktəbdənkənar, auditoriyadankənar tədbirlərdə tanış edilmələri məqsədəuyğundur.

**Problemin aktuallığı**. Prezident seçkilərində yenidən Azərbaycanın Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin uğurlu fəaliyyətini işıqlandırıdığından məqalə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Tarixi qələbəmizdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qiymətli fikirləri yada salınır, uğurlarımız diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. 10 yanvar 2024-cü il. https://president.az/az/articles/view/63017
2. Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev and içdi. //"Azərbaycan" qəzeti, -2024, 15 fevral

**E-mail**: prof.akif@mail.ru
**Rəyçilər**: *ped.elm.dok., prof.* **H.Ə. Əlizadə,**
*ped.elm.dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub**: 11.02.2024